*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 402-408*

https://doi.org/10.62837/2026.1.402

**ZİYA FƏTULLAYEV**
*Lənkəran Dövlət Universitetinin*
*magistrantı* ziya.ftullayev@mail.ru

# MƏMMƏD ARAZ LİRİKASINDA VƏTƏN-TƏBİƏT MÖVZULARININ QARŞILIQLI VƏHDƏTİ VƏ BU VƏHDƏTİN BƏDİİ-FƏLSƏFİ İFADƏSİ

## XÜLASƏ

Məqalədə Xalq şairi Məmməd Araz lirikasında vətən və təbiət mövzularının qarşılıqlı vəhdəti və bu vəhdətin bədii-fəlsəfi ifadə xüsusiyyətləri araşdırılır. Təhlil zamanı şairin poeziyasında təbiət obrazlarının yalnız təsvir xarakteri daşımadığı, onların milli kimliyin, vətən düşüncəsinin və azərbaycançılıq ideyasının əsas ifadə vasitələrindən biri olduğu göstərilir. Məmməd Araz üçün təbiət vətənin ayrılmaz tərkib hissəsi kimi təqdim olunur və bu anlayışlar poetik mətndə üzvi şəkildə birləşir.

Məqalədə "Şahdağı", "Bəlkə, bu yerlərə bir də gəlmədim", "Mən getsəm…" və digər şeirlər əsasında şairin təbiət–vətən münasibətlərinə fəlsəfi yanaşması, insan ömrünün faniliyi, torpaqla insan taleyinin vəhdəti və vətən qarşısında mənəvi məsuliyyət ideyası təhlil edilir. Qeyd olunur ki, Məmməd Araz poeziyasında forma və qafiyə ikinci planda dayanır, əsas diqqət məzmunun dərinliyinə, ideya-fəlsəfi yükə və obrazlı təfəkkürə yönəlir.

Nəticə etibarilə, Məmməd Araz lirikasında vətən və təbiət vəhdəti milli-mənəvi dəyərlərin bədii ifadəsi kimi çıxış edir və şairin yaradıcılığı Azərbaycan poeziyasında vətəndaşlıq mövqeyinin, vətənpərvərliyin və fəlsəfi düşüncənin parlaq nümunəsi kimi dəyərləndirilir.

**Açar sözlər: Məmməd Araz, lirika, vətən, təbiət, bədii-fəlsəfi düşüncə, azərbaycançılıq.**

Qurban olum torpağına, daşına,
Qaldır məni Əlincənin qaşına.
Qoy da olanın, Vətən, sənin başına,
Deməsinlər pərvanəsi çatışmır.
Dərviş Cavanşir [ 2, 12 ]

Bu ifadə təkcə şair qələmindən, şair qəlbindən süzülüb gələn bir səsdir. Bu həm də Xalq şairi Məmməd Araza və onun kimi vətənpərvər şairlərə məxsusdur. Bəli, Məmməd Araz elə bir pərvanədir ki, o bütün Azərbaycanın başına dolanır. Bu şeirə, müəllifinə böyük hörmətimiz var, güclü ifadədir. Ancaq niyə "qaldır" deyib?! Məmməd Araz özü qalxıb Naxçıvanın hər yerini seyr edib, yaxud Murova qalxıb

Qarabağın hər yerini seyr edib və s. Məmməd Araz Azərbaycanı təkcə gözüylə yox, ruhuyla, qanıyla, canıyla, qəlbiylə Vətəni-təbiəti seyr edib. Təbiət vətənindir. Vətən təbiətlə əhatə olunub. Məmməd Araz təbiətlə Vətəni bir-birindən ayırmır, onları həmişə vəhdətdə tərənnüm edir.

Bəlkə, bu yerlərə bir də gəlmədim.
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar? -
Leysan, salamat qal, yağ, salamat qal.

Gəldim, qarşıladı güllər, çiçəklər,
Gedirəm, əl edir boz biçənəklər.
Nidamı çaylara dedi küləklər:
Bulan, salamat qal, ax, salamat qal. [ 9, 39]

Təbiətin bir yekə parçası olan dağları seyr etməkdən, gəzməkdən doymayan şair nədənsə qorxur ki, bəlkə, bir də buralara gəlmədim. Kövrək notlarla yazılmış bu şeirdə sözün həqiqi mənasında həm fəlsəfi fikir ünsürləri yer tutur, həm də təbiətlə vətənin, torpaqla vətənin ayrılmazlığını ecazkar şair qələmi ilə təsvir və tərənnüm edir. Düşünülməlidir ki, insanlar həyata bir dəfə gəlir və gedir. Daha qayıtmırlar. Qayıtsalar, səhvlərini düzəldərlər. Deməli, Məmməd Araz "bəlkə, bu yerlərə bir də gəlmədim" fikrini bir filosof kimi düşünürdü. Elə burada da şairin bir şeirini təhlilə çəkmək yerinə düşür:

Mən getsəm, dünyada uçrum yaranar,
Toyda da, yasda da görünər yerim.
Yayda bir ah çəkər, payız da yanar,
Qışda da, yazda da görünər yerim.

Mən getsəm, saç yolub dağların çəni
Ağlayar bir ana, bir bacı kimi.
Təbiət düşünər, düşünər məni
Bir fiqur itirən şahmatçı kimi... [ 8, 83 ]

Bu poeziya yarpaqların da şair özünü təbiətlə vəhdətdə, təbiətlə vətəni vəhdətdə görür. Mənasına, məzmununa diqqət yetirsək, görərik ki, şair yığcam ifadə ilə təbiəti vətəndən, vətəni təbiətdən ayrı tuta bilmir və özünü də onlardan ayıra bilmir. Ancaq bunu bilir ki, o da ana vətənin övladıdır. "Gəlimli, gedimli dünya, bir ucu ölümlü dünya" ifadəsi Dədəm Qorquddan yadigar qalmış, isbatsız qəbul edilən teorimdir. Bu İlahi hökmünü və Dədəm Qorqudun nəsihətini nəzərə alaraq, özünü də təbiətin bir parçası hesab edərək deyir:

Mən getsəm, saç yolub dağların çəni
Ağlayar bir ana, bir bacı kimi. [ 8, 83 ]

Poeziyada təbiətlə vətənin vəhdəti və bu vəhdətin bədii-fəlsəfi ifadəsinə ən parlaq nümunədir. Hələ özünü də təbiətin bir parçası hesab edəndə, Məmməd Arazın bənzərsizliyi, təbiətə, vətənə, torpağa bağlılığı daha qabarıq görünür. Bu əsl azərbaycançılıqdır.

Tanınmış jurnalist, publisist, iti qələm sahibi Allahverdi Eminovun bu barədə bir sitatını, elmi-bədii fəlsəfi fikrinə nəzər salaq. "Şeirin sonunda müəllif qoyduğu üç nöqtə bəs nəyə işarədir? Yozuma bələnən həqiqətlər yalnız şairlərə, yazıçılara aid olmur. Yeri gələndə, realist düşüncə sahiblərində də yozumlar yetərincədir..." [ 1, 92]

Məmməd Araza Sokratın kəlamına da bəlli idi:

"Məni tutun və saxlayın, sizə lazım olaram". Təbiət şairi anlamadı və qorumadı. Halbuki o artıq xalqın sevimlisiydi. Məmməd Araz fikir, intellekt adamı, şair idi. Dərin zəkaya maliki idi.

Görkəmli söz ustadı Məmməd Arazın ana vətənin qurucu dayaqlarından bəhs edən şeirləri çoxdu. Bu poeziya nümunələrindən biri də 1956-cı ildə qələmə aldığı "Şahdağı" şeiridir. Diqqət yetirək:

Qar əridi, sinən coşdu, sinəmtək,
Nə gözəldir ilk baharın, Şahdağı.
Elsiz olsan, selin olar göz yaşı,
Budur gəldi obaların, Şahdağı.

Gördüm Bazaryurdu, Yataqdərəni,
Keçdim quş keçməyən dağı, dərəni.
Döysə də yay günü boran, qar məni,
Od oldu qəlbimdə qarın, Şahdağı.

Ömrün-günün dərdsiz, qəmsiz deyildi,
Çox ananın dərdi sənə deyildi.
Çox şah gəlib ətəyində əyildi,
Əyilmədi şah vüqarın, Şahdağı. [ 9, 150 ]

Vətənimizin dağları sırasında da Şahdağı bir şah kimi başda durur. O əyilməzdi, yenilməzdi. Şahlar şahı, dağlar dağıdır. Yağıya baş əymədi Şahdağı. Elə baş əymədi ki, adını qoydular Şahdağı. Əyilməzliyinə görə ən aşağı ətəyi belə, ən uca zirvəsi alına bilmədiyinə görə qüdrətli "Şah" oldu. Həqiqi mənada şah olanlar, sərkərdələr

gəlib onun zirvəsini fəth etmək istədilər. Lakin onlar ən aşağı ətəyindən belə yuxarı qalxa bilmədilər. Nəticədə aciz qalaraq ətəyindən öpdülər, ona səcdə etdilər.

Şairin son iki misrasında dediyi kimi:

Çox şah gəlib ətəyində əyildi,
Əyilmədi şah vüqarı Şahdağın. [ 9, 150]

Bəli, vüqarı Azərbaycanı vüqarlı, əzəmətli etdi. Bu torpaq, bu yurd, bu ölkə neçə-neçə hücumlara məruz qalsa da, əyilmədi, sınmadı; varlığını, adını özündə qoruyub saxladı.

Çox eşitmişik və bəzi məqalələrdən oxumuşuq ki, Məmməd Araz şeirlərinin əksəriyyətində qafiyə quruluşunu bəzən unudur. Bu, doğrudur. Filologiya elmləri namizədi, Naxçıvan Dövlət Universitetinin Ədəbiyyat kafedrasının dosenti Seyfəddin Eyvazov yazır: "Doğrudur, o, şeirlərində qafiyə quruluşuna xüsusi fikir vermir. Çünki o, mənanı, məzmunu, dediyi fəlsəfi fikri, düşüncəni ön plana çəkir". [ 2, 11]

Nümunəyə diqqət edək:
El sazında səsim qala bircə sim,
El yazında nəsim olam bircə əsim,
Harada olsam, ay eşqimin bircəsi,
Harada olsan, çağrışına tələsdim. [ 9, 195 ]

İzaha, təhlilə ehtiyac yoxdur. Qafiyələr də, məzmun da, məna da, məntiq də göz qabağındadır.

Tanınmış jurnalist, yazıçı Allahverdi Eminov yazır: "Məmməd Araz poeziyasını araşdırarkən, onun poetik təfəkkürünə vararkən, qənaətimi burada açıqlayım ki, şairin beynində, bədii təfəkküründə kimyəvi proseslər ağlagəlməz çevikliklə və surətlə baş verir. Qafiyələr də o şərtlə, istənilən anlarda təbii surətdə öz yerini tapır - beyin, (təxəyyül) istənilən anlarda yaddaşın bütün gözlərini axtara bilsin, bu da hələ kifayətləndirici deyil. Məmməd Araza yalnız qafiyələrlə qiymət vermək birtərəflikdir, fikrin poetik ifadəsi, dilin obrazlılığı, mövzunun assosiativliyi, nəhayət, xarakterinin inkişaf məntiqi!" [ 1, 190]

Əvvəlki təhlilimizdən və sitatın izahından aydın olur ki, Məmməd Arazın poeziyasına vardıqda, daha doğrusu, hansı prizmadan baxsaq da, orada vətən–torpaq sevgisi öndə durur. Azərbaycanın dağları da, büllur bulaqları da, əzəmətli, alınmaz qayaları da, meşələri də, ürəkaçan mənzərələri də vətənin torpağıdır. Ana vətənin, doğma Azərbaycanın ayrılmaz, tam hissələridir. Bunlarsız vətən tam olmaz.

Qeyd edək ki, bu fikirləri aksiom kimi bir neçə cümlə ilə, yaxud bir neçə səhifə yazı ilə söyləmək, yazmaq olar. Şairlər isə, xüsusən Məmməd Araz bu aksiomu elə bədii təsvirlə, elə bədii fəlsəfi tərənnümlə verir ki, hər bir kəsin ruhuna daxil olur. Bu

əsl poetik ifadələr, bu misralar, bu tərənnümlər ölməz şairin ruhundan, qanından yoğrulmasa, oxucuların qanına, canına sirayət etməz. Belə olduqda xalqımız ana yurdumuzun daşına, çınqılına çevrilməz. Ana yurdu, ana torpağı, Odlar yurdu Azərbaycanı dünya bilən və “Azərbaycan dünyam mənim” deyəndə hər kəs anlayır ki, bəli, Azərbaycan bir dünyadır, özü də bənzərsiz bir dünyadır.

Azərbaycan - qayalarda bitən bir çiçək,
Azərbaycan - çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəzifə eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan - mayası nur, qayəsi nur ki...
hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər. [ 9, 100 ]

Şeirin sonunda yazır ki,
"Azərbaycan!" deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər. [9, 100]

Maraqlıdır ki, niyə əvvəlcə Füzulinin, sonra Azərbaycanın ürəyinə toxuna bilər yazır? Bizə görə, Məhəmməd Füzuli anadilli ədəbiyyatımızın, poeziyamızın, qəzəlimizin, qəsidəmizin ilk və görkəmli nümayəndəsi olmaqla bərabər, əsl azərbaycanlı kimi qərib yerdə, qərib ölkədə dəfn olunub. O da əsl azərbaycanlı kimi həmişə Azərbaycanın təəssübünü saxlayıb. Deməli, əsl azərbaycanlı İraqın Kərbəla şəhərində dəfn olunub. Məmməd Araz məntiqindən bu çıxır ki, əsl azərbaycanlı kimi o da bu vətənin bir çınqılıdır. Çünki o dövrdə Bağdadda da, Azərbaycanda da fars dili hökmran idi. Füzulinin böyüklüyü ondadır ki, Azərbaycan dilində ilk yazanlardan olub. Bu, azərbaycançılıqdır. Etiraf edək ki, bu mövzu başqa bir elm adamının dissertasiya mövzusudur. Qənaətimiz budur ki, Məmməd İbrahim Araz şairdir, vətəndaş şairdir. Gənc yaşlarından ölənə qədər əsl vətənpərvərliyi əsə-əsə poetik-fəlsəfi cümlələrlə, ifadələrlə, dolğun fikirlərlə izah etdi.

**Ədəbiyyat**:

1) Allahverdi Eminov. Məmməd Arazın poeziyası. Bakı: Elm və təhsil, 2018, 368 s.
2) “Ədalət” qəzeti. 19 mart 2011.
3) “Ədalət” qəzeti. 20 oktyabr 2023.
4) “Ədalət” qəzeti. 3 noyabr 2023.
5) “Ədalət” qəzeti. 28 dekabr 2023.
6) “Ədəbiyyat qəzeti”. 27 yanvar 2020.

7) Mehman Qaraxanoğlu. “Haqqın var, Məmməd Araz, haqqın var yaşamağa...” https://manera.az/index.php?newsid=16018

8) Məmməd Araz. Dünya sənin, dünya mənim. Şeirlər. Bakı: Yazıçı, 1983, 310 s.

9) Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə.
I cild. Bakı: Lider nəşriyyat, 2004, 224 s.

10) Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə.
II cild. Bakı: Lider nəşriyyat, 2004, 232 s.

11) Məmməd Araz. Seçilmiş əsərləri. Şeirlər və poemalar. Bakı, Arnəşr. 1986, 480 səh.

12) Məmməd Araz . Daş harayı. Şeirlər və poemalar. Bakı, Yazıçı, 1992. 256 səh.

13) Vaqif Yusifli. Məmməd Araz dünyası (həyatı və yaradıcılığı). Bakı: Elm və təhsil, 2024, 220 s.

***Зия Фатуллаев***
***магистрант Лянкяранского государственного университета***
***ziya.ftullayev@mail.ru***

## Взаимосвязь тем Родины и природы в лирике Мамеда Араза и их художественно-философское выражение

**Аннотация**

В статье исследуется органическое единство тем Родины и природы в лирике народного поэта Мамеда Араза, а также художественно-философские особенности выражения этого единства. В ходе анализа показано, что образы природы в поэзии поэта не носят лишь описательный характер, а выступают одним из основных средств выражения национальной идентичности, идеи Родины и азербайджанства. Для Мамеда Араза природа представляется неотъемлемой частью Родины, и эти понятия органично сливаются в поэтическом тексте.

На материале стихотворений «Шахдаг», «Возможно, я больше не вернусь в эти края», «Если я уйду…» и других анализируется философский подход поэта к соотношению природы и Родины, идея бренности человеческой жизни, единство судьбы человека с землёй и нравственная ответственность перед Родиной. Отмечается, что в поэзии Мамеда Араза форма и рифма отступают на второй план, а основное внимание сосредоточено на глубине содержания, идейно-философской нагрузке и образном мышлении.

В итоге делается вывод о том, что единство Родины и природы в лирике Мамеда Араза выступает художественным выражением национально-духовных ценностей, а его творчество оценивается как яркий пример гражданской позиции, патриотизма и философского мышления в азербайджанской поэзии.

**Ключевые слова: Мамед Араз, лирика, Родина, природа, художественно-философское мышление, азербайджанство.**

***Ziya Fatullayev***
***Master's student at Lankaran State University***
***ziya.ftullayev@mail.ru***

## The Interrelation of the Themes of Homeland and Nature in the Lyrics of Mammad Araz and Their Artistic and Philosophical Expression

**ABSTRACT**

The article examines the unity of homeland and nature in the lyrical poetry of the Azerbaijani national poet Mammad Araz and the artistic–philosophical features of its expression. The analysis demonstrates that images of nature in Araz's poetry are not merely descriptive elements but function as key means of expressing national identity, patriotic consciousness, and the ideology of Azerbaijani national thought. For the poet, nature is presented as an inseparable component of the homeland, and these concepts are organically intertwined in poetic discourse.

Based on poems such as "Shahdagh," "Perhaps I Will Not Come Here Again," and "If I Leave," the article explores the poet's philosophical approach to the relationship between nature and homeland, the transience of human life, the unity of human destiny and land, and moral responsibility toward the homeland. It is emphasized that formal aspects such as rhyme are secondary in Araz's poetry, while semantic depth, philosophical content, and figurative thinking take precedence.

In conclusion, the unity of homeland and nature in Mammad Araz's lyric poetry serves as an artistic embodiment of national and moral values, and his creative legacy is evaluated as a significant example of civic consciousness, patriotism, and philosophical reflection in Azerbaijani poetry.

**Keywords: Mammad Araz, lyric poetry, homeland, nature, artistic-philosophical thought, Azerbaijani identity.**

**Rəyçi: ELŞAD SƏFƏRLI**
*Lənkəran Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru*